1_Layout 1 13.09.2019 11:21 Page 1

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*
İlham ƏLİYEV

# ƏSGƏR

№ 18 (559)
16 sentyabr 2019-cu il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti

## Azərbaycanın neft tarixində əvəzsiz rolu olan müqavilə - "Əsrin müqaviləsi"

**Bu il Azərbaycanın neft sənayesi tarixində özünəməxsus yeri olan "Əsrin müqaviləsi"nin imzalanmasının 25-ci ildönümüdür. "Əsrin müqaviləsi" 1994-cü il sentyabrın 20-də Bakıda "Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında" 7 ölkənin 11 ən iri neft şirkəti ilə imzalanmış müqavilədir.**

Azərbaycan öz dövlət müstəqilliyini möhkəmləndirmək, iqtisadiyyatını yenidən qurmaq üçün neft sənayesinə böyük həcmdə kapital cəlb etmək məqsədilə xarici dövlətlərlə iqtisadi və siyasi əlaqələr qururdu. Azərbaycan məhz bunun üçün Xəzərin neft və qaz ehtiyatlarının xarici şirkətlərlə birgə işlənməsi yolunu tutdu. Xalqın təkidi ilə 1993-cü il iyunun 15-də Azərbaycan Ali Sovetinin sədri seçilən Ulu Öndər Heydər Əliyev qurduğu yeni hökumətin qarşılaşdığı iqtisadi çətinliklərin həlli yollarından biri məhz neft və qaz strategiyasını daha mükəmməl həyata keçirmək idi. Ölkənin maliyyə vəsaitinin məhdudluğu, neft-qaz sənayesinin müasir dünya texnologiyalarından geri qalması xarici neft şirkətlərini bu sahəyə sərmayə qoyuluşuna cəlb etmək zərurətini yaratmışdı. Lakin xarici ölkələrin neft şirkətləri Azərbaycanın müstəqilliyinin daimi olmayacağından ehtiyat edir, onlar Azərbaycanın neft sənayesinə sərmayə qoymaqdan çəkinirdilər. Belə çətin və mürəkkəb vaxtda siyasi rəhbərliyə gələn Milli Lider Heydər Əliyev respublikanın neft sənayesi ilə daha yaxından məşğul olmağa başladı. O vaxt "Azəri", "Çıraq" və "Günəşli" yatağının dərinsulu hissəsinin ehtiyatlarının mənimsənilməsi üçün iki variantdan birini seçmək - ya ölkəmizin maliyyə-iqtisadi vəziyyətinin düzəlməsi üçün 30-40 il gözləməli, ya da xarici neft şirkətlərini respublikaya dəvət etmək lazım idi. Dövlət dünyanın lider neft ölkələri – ABŞ, Böyük Britaniya, Norveç və başqaları ilə birgə iş birliyi qurmaq yolunu seçdi. Çünki neft sənayesi böyük sərmayə qoyuluşu və müasir qazma texnologiyası tələb edirdi. Belə imkanları olan ölkələr, xüsusilə də dənizdə bu riskə təklikdə getmək istəmirdi. Həmin dövrdə dünyanın inkişaf etmiş ölkələrinin neft şirkətlərinin diqqəti Azərbaycanda idi. Onlar Azərbaycanın neft ehtiyatlarının olduqca çox olduğunu bilir, ölkə ərazisində zəngin neft-qaz yataqlarının varlığından məlumatlı idilər. Azərbaycan neftinin keçmiş sovet ölkəsinin inkişafında müstəsna rolu olmuş, ancaq Azərbaycan xalqı neftdən çox az mənfəət götürmüşdü. Müstəqil dövlət kimi isə neft yataqlarından elmi əsaslarla, ağılla, qənaətlə istifadə edilməsə uğur qazanmaq mümkün olmazdı. Azərbaycan hökuməti həmin dövrdə çox düzgün qərar verərək neft sərvətindən kifayət qədər düzgün istifadə edilməsi üçün yeni mərhələdə xarici neft şirkətləri ilə əlaqə qurmaq, sazişlər bağlamaqla dövlətin həm iqtisadiyyatını, həm milli qüdrətini, həm də dövlətçiliyini möhkəmləndirmək qərarına gəldi.



Azərbaycan Prezidenti Heydər Əliyev yeni neft siyasətini həyata keçirmək məqsədilə 1994-cü ilin fevralında Böyük Britaniyaya səfər etdi. Bu səfər zamanı Azərbaycan və Böyük Britaniya arasında 8 hökumətlərarası müqavilə, o cümlədən də "Neft sənayesi sahəsində əməkdaşlıq haqqında" saziş imzalandı. Danışıqlarda, həmçinin, Böyük Britaniyanın "British Petroleum" (BP) şirkətinə "Çıraq" və "Azəri" yataqlarının işlənməsi üzrə yaradılmış beynəlxalq konsorsiumda prioritet yer, o cümlədən də konsorsiumun qərb iştirakçıları üçün ümumi investisiya payında 31 faiz yer ayrıldı. Milli Lider Heydər Əliyevin Böyük Britaniyaya rəsmi səfərindən sonra beynəlxalq konsorsiumda neft yataqlarının işlənməsi barədə danışıqlar rəsmi səviyyədə sürətləndirildi. 1994-cü ilin yazında İstanbul və Hyustonda danışıqların son mərhələsini aparan Azərbaycan nümayəndə heyəti milli maraqlara tamamilə cavab verən müqavilə şərtləri hazırladı. Bu danışıqların nəticəsində 1994-cü il sentyabrın 20-də Bakının möhtəşəm Gülüstan sarayında "Əsrin müqaviləsi" kimi tarixi bir ad almış ilk neft müqaviləsi imzalandı. Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında sazişin imzalanması ilə ölkəmizin neft sənayesi tarixində tamamilə yeni bir səhifə açıldı. Azərbaycanın neft sənayesinin, ümumiyyətlə iqtisadiyyatının inkişafında, bütün xalqımızın güzəranının yaxşılaşmasında yeni dövrün əsasını qoyan "Əsrin müqaviləsi"nin imzalanması ilə başlanmış iş XXI əsrdə Azərbaycanın dinamik inkişaf yolunu müəyyən etdi. Bu sazişdə 7 ölkənin 11 neft şirkəti təmsil olunurdu. Həmin müqaviləyə əsasən, Azərbaycanın dəniz yataqları olan "Çıraq", "Azəri" və "Günəşli" yataqlarının mənimsənilməsi 30 il müddətinə nəzərdə tutulurdu. 1994-cü ilin dekabrında "Əsrin müqaviləsi" Azərbaycan parlamentində təsdiq edildi.

**"Əsrin müqaviləsi"nin imzalanması və uğurla həyata keçirilməsi nəticəsində Azərbaycanın beynəlxalq aləmdə nüfuzu xeyli yüksəldi. Həmin dövrdə bir sıra dövlətlərin başçıları Azərbaycanın dünyanın bir çox dövlətlərinin iştirak etdiyi neft şirkətlərinin birgə işlərini, "Əsrin müqaviləsi"ni yüksək qiymətləndirirdilər. "Əsrin müqaviləsi"nin imzalanması, ölkəmizdə görülən işlər dünyaya bir daha sübut etdi ki, Xəzər dənizinin Azərbaycan sektorunda çox zəngin neft-qaz yataqları var və Azərbaycan dövləti ilə uzunmüddətli, etibarlı əməkdaşlıq etmək olar. Bu saziş Azərbaycanda ictimai-siyasi sabitliyin təmin olunmasına, ölkənin gələcək iqtisadi inkişafına və dünya iqtisadiyyatına inteqrasiyasına zəmin yaratdı.**

**AZƏRTAC**

## DAXİLİ İŞLƏR NAZİRLİYİ MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

***DİN Daxili Qoşunlarının Qəbələ rayonu ərazisində yerləşən "N" saylı hərbi hissəsinin zabit və gizirləri üçün əsaslı təmir edilmiş yaşayış binasının istifadəyə verilməsinə həsr olunmuş mərasim keçirilib.***

Tədbirdə iştirak edən respublikanın Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov yeni binada mənzillə təmin olunmuş sakinlər qarşısında çıxış edərək onları təbrik edib, yeni mənzillərində xoşbəxtlik, yüksək rifah, eləcə də xidmətdə uğurlar arzulayıb. O, zati-aliləri cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü siyasət nəticəsində ölkənin ictimai-siyasi, iqtisadi həyatında, ordu quruculuğunda böyük uğurlar qazanıldığını, daxili işlər orqanlarının maddi-texniki bazasının daha da möhkəmləndiyini, hərbi qulluqçuların sosial-məişət şəraitinin ilbəil yaxşılaşdığını vurğulayıb. Nazir deyib ki, son illər Daxili Qoşunlar üçün də müxtəlif təyinatlı onlarca obyekt, hərbi şəhərciklər, o cümlədən hərbi qulluqçular üçün yeni yaşayış kompleksləri, əsgər kazarmaları, müasir avadanlıqlarla təchiz edilmiş tibb məntəqələri və s. tikilərək istifadəyə verilib. Bildirilib ki, yeni təmir olunmuş 5 mərtəbəli 80 mənzilli bu binanın da istifadəyə verilməsi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Daxili Qoşunlara göstərdiyi böyük diqqət və qayğının bariz nümunəsidir.

Nazir hərbi qulluqçulara verilən mənzillərə baxıb, onlarla həmsöhbət olub. Daxili Qoşunların yeni tikilidə mənzillə təmin olunan zabit və gizirləri, onların ailə üzvləri göstərilən ali diqqət və qayğıya, hərbi qulluqçuların sosial rifah halının, mənzil-məişət şəraitinin daha da yaxşılaşdırılmasına görə ölkə Prezidenti,



Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

Daha sonra nazir, general-polkovnik Vilayət Eyvazov Daxili Qoşunların Qəbələ, Zaqatala rayonlarında və Şəki şəhərində yerləşən hərbi hissələrində olub. Bu tədbirlərdə nazir müavini-Daxili Qoşunların komandanı, general-leytenant Şahin Məmmədov general-polkovnik Vilayət Eyvazova şəxsi heyət və texnika barədə raportlar verib.

Hərbi hissələrin sıra meydanında düzülmüş hərbi qulluqçuların və əsgərlərin qarşısında çıxış edən nazir V.Eyvazov Ulu Öndərin əsasını qoyduğu inkişaf və tərəqqi strategiyasının Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən uğurla davam və inkişaf etdirilməsi nəticəsində ölkəmizin iqtisadi qüdrətinin, müdafiə potensialının artdığını, beynəlxalq mövqelərinin möhkəmləndiyini bildirib, möhtərəm dövlət başçımızın ümumən ordu quruculuğuna, o cümlədən Daxili Qoşunların fəaliyyətinin təkmilləşdirilməsinə, maddi-texniki təminatına, iş və məişət şəraitinin daha da yaxşılaşdırılmasına daim xüsusi diqqət göstərdiyini vurğulayıb.

Daxili Qoşunların ölkəmizdə müstəqilliyin və daxili sabitliyin qorunmasında xüsusi xidmətləri olduğunu diqqətə çatdıran nazir şəxsi heyətin ictimai asayişin qorunmasında və ictimai təhlükəsizliyin təmin olunmasında, cinayətkarlığa qarşı mübarizədə, xüsusi əməliyyatların keçirilməsində fəal iştirakını, yüksək peşəkarlığa, döyüş və mənəvi-psixoloji hazırlığa malik bir quruma çevrildiyini məmnunluqla bildirib. O, ölkəmizə qarşı elan olunmamış müharibənin ilk günlərindən Daxili Qoşunların cəbhə xəttində şərəfli döyüş yolu keçdiyini, bu yolda yüzlərlə şəhid verdiyini qeyd edərək, bildirib ki, hələ də torpaqlarımızın 20 faizi işğal altında



olduğuna görə hazırda ölkəmiz müharibə şəraitindədir. Ona görə də qüdrətli Azərbaycan ordusu ilə yanaşı Daxili Qoşunların şəxsi heyəti də öz üzərlərinə düşən xidməti vəzifələri ilə bərabər torpaqlarımızın azadlığı və ərazi bütövlüyümüzün bərpası üçün Ali Baş Komandanın verəcəyi əmrin icrasına hər an hazır olmalı, döyüş hazırlığı səviyyələrini daim yüksək saxlamalıdırlar.

Hərbi hissələrin şəxsi heyətinə konkret tapşırıq və tövsiyələrini verən Daxili İşlər naziri sonda daxili işlər orqanlarının, o cümlədən onun ayrılmaz tərkib hissəsi olan Daxili Qoşunların şəxsi heyətinin fəaliyyətini hər zaman yüksək qiymətləndirdiyinə görə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı zati-aliləri cənab İlham Əliyevə dərin minnətdarlığını bildirib və onu əmin edib ki, Daxili Qoşunların hərbi qulluqçuları qarşıya qoyulan bütün vəzifələri bundan sonra da layiqincə yerinə yetirəcək, göstərilən ali diqqət və böyük etimadı xalqına, Vətəninə, dövlətinə və Prezidentinə sədaqətli xidməti ilə doğruldacaqdır.

Daxili İşlər naziri V.Eyvazovun rəhbərliyi ilə hərbi hissələrin qərargahlarında komandir heyətləri ilə əməliyyat müşavirələri keçirilib.

Sonra o, hərbi hissələrin tədris, silah otaqlarında, avtomobil və zirehli texnika parkında, tibb məntəqələrində, yeməkxanalarında olub, hərbi qulluqçuların sosial-məişət şəraiti ilə maraqlanıb.

Nazir əsgər yeməkxanalarında şəxsi heyətlə birlikdə nahar edib.

2_Layout 1 13.09.2019 12:31 Page 1



# BAŞ İDARƏDƏ GÖRÜŞ

**Sentyabrın 10-da Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədov xidməti ezamiyyətini başa vuran Daxili Qoşunlar Komandanının müşaviri polkovnik Mustafa Çekiçi qəbul edib.**



Azərbaycan Respublikası və Türkiyə Respublikası arasındakı qarşılıqlı xoş münasibətlərdən söz açan general-leytenant Ş.Məmmədov Türkiyə Jandarm Baş Komandanlığının Daxili Qoşunlarda xidməti ezamiyyətdə olan hər bir hərbi qulluqçusunun təlim-tədris prosesinin inkişafı və təkmilləşdirilməsi istiqamətində mühüm işlər gördüyünü diqqətə çatdırıb. Xüsusilə Daxili Qoşunların xüsusi təyinatlı bölmələri üçün Türkiyə Respublikası Daxili İşlər Nazirliyinin Jandarm Baş Komandanlığının müvafiq təlim-tədris mərkəzlərində yeni kursların təşkili istiqamətində göstərdiyi təşəbbüslərə görə polkovnik Çekiçə təşəkkürünü bildirib.

Polkovnik M.Çekiç öz növbəsində, Daxili Qoşunlarda xidməti ezamiyyətdə olmaqdan məmnun olduğunu ifadə edərək, bu müddət ərzində ona göstərilən diqqət və qayğıya görə Daxili Qoşunlar Komandanına dərin minnətdarlıq hisslərini çatdırıb.

Qarşılıqlı fikir mübadiləsi zəminində keçən görüşdə qeyd olunub ki, iki qardaş ölkənin müvafiq qurumları arasında səmimi dostluq və hərbi əməkdaşlıq bundan sonra da uğurla davam edəcək.

Öz səmimi arzularını dilə gətirən general-leytenant Ş.Məmmədov polkovnik M.Çekiçə təyin olunduğu yeni vəzifədə, qarşıdakı fəaliyyətində müvəffəqiyyət və şəxsi həyatında xoşbəxtlik diləyib.

Görüşün sonunda Daxili Qoşunların Komandanı polkovnik M.Çekiçi "Xidmətdə fərqləndiyinə görə" döş nişanı ilə təltif edərək, ona Daxili Qoşunların yaranmasının 25-ci ildönümünə həsr olunmuş kitabı təqdim edib və xatirə şəkli çəkilib.

**Mətbuat xidməti**

# DAXİLİ QOŞUNLARIN TƏLİM MƏRKƏZİNDƏ NÖVBƏTİ METODİKİ-TƏLİM TOPLANIŞI KEÇİRİLİB

**"2019-cu ildə Daxili Qoşunlarda əsas tədbirlərin, döyüş təliminin planlaşdırılması və təşkilinə dair təqvim planı"na uyğun olaraq sentyabrın 5 və 6-da Ali Hərbi Məktəb rəisinin və hərbi hissə komandirlərinin 1-ci müavinləri-qərargah rəisləri və MTT üzrə müavinləri ilə Daxili Qoşunların Təlim mərkəzində metodiki-təlim toplanışı keçirilib.**



Daxili Qoşunların Baş İdarəsinin Qərargahında baş zabit polkovnik-leytenant Tural Novruzov bildirib ki, metodiki-təlim toplanışı ilə əlaqədar tələb olunan müvafiq rəhbəredici və planlaşdırıcı sənədlər hazırlanıb. Metodiki-təlim toplanışına ümumilikdə, 37 nəfər hərbi qulluqçu cəlb olunub.



Polkovnik-leytenant Tural Novruzov qeyd edib ki, təsdiq olunmuş məşğələ cədvəlinə uyğun olaraq, toplanış iştirakçıları ilə hərbi hissə və bölmələrin idarə olunması, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin 2006-cı il 28 yanvar tarixli "Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının qoşun təsərrüfatı haqqında Əsasnaməsi"nin təsdiq edilməsi barədə əmrinin tələbləri, şəxsi heyətin döyüş xidmətinə seçilməsi, hazırlanması və təlimatlandırılması, qarovul xidmətinin təşkili və aparılması, hərbi hissə komandirləri və onların müavinlərinin döyüş təliminə rəhbərlik üzrə fəaliyyətinin təşkili, kimya silahlanma vasitələrinə texniki baxışların təşkili və keçirilməsi qaydaları, hərbi hissə və bölmələrin yüksək döyüş hazırlığının 2-ci və 1-ci mərhələsinə gətirilməsi qaydaları, qarşıya qoyulmuş döyüş tapşırıqlarının yerinə yetirilməsinə hazırlığın təmini üzrə hərbi hissə komandirinin vəzifəsi, əsgər yeməkxanalarında qidalanmanın təşkili, yeməkxanaların müvafiq əmrlərin tələblərinə uyğun təchizatı, yeməkxana növbətçilərinin fəaliyyətinə nəzarət, hərbi hissələrdən kənarda xidmətaparan şəxsi heyətin ərzaqla təminatı və ərzaq məhsullarının çatdırılması qaydaları, atıcı silahlardan və tapançalardan praktiki atışların keçirilməsi qaydaları, karvan tərkibində maşınların idarə edilməsinin xüsusiyyətləri, baş vermiş yol-nəqliyyat hadisələrinin qarşısının alınmasının profilaktikası mövzularında məşğələlər təşkil olunub.



Bundan əlavə, Daxili Qoşunların Təlim mərkəzində təlim toplanışının iştirakçılarından atəş hazırlığından tapançadan və avtomatdan, fiziki hazırlıqdan 1, 5 və 8 nömrəli normativlərdən, Silahlı Qüvvələrin Ümumqoşun Nizamnamələri və rəhbər sənədlərin tələbləri üzrə məqbullar qəbul edilib.

Daxili İşlər Nazirinin müavini- Daxili Qoşunların Komandanı tərəfindən toplanış iştirakçılarına 2019-cu ildə idarəçilik fəaliyyətlərində, döyüş hazırlığının yüksək səviyyədə saxlanılmasında və hərbi intizamın möhkəmləndirilməsi istiqamətində kəsərli tədbirlər görülməsi barədə tövsiyə və tapşırıqlar çatdırılıb.

**baş leytenant Xədicə Hacızadə**

# 12565 SAYLI HƏRBİ HİSSƏDƏ KEÇİRİLƏN DÖYÜŞ-ATIŞLI TAKTİKİ TƏLİM UĞURLA SONA ÇATIB

**Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanının müvafiq əmrinə əsasən, sentyabr ayının 4-dən 6-na kimi 12565 saylı hərbi hissənin artilleriya batareyasının şəxsi heyəti ilə döyüş-atışlı taktiki təlim keçirilib.**

Təlimin təşkili və keçirilməsi ilə əlaqədar Daxili Qoşunlar Komandanının əmrinin icrasını təmin etmək məqsədilə, döyüş-atışlı taktiki təlimin təşkili və keçirilməsi üçün Əməliyyat və döyüş hazırlığı İdarəsinin Döyüş hazırlığı şöbəsi tərəfindən 12565 saylı hərbi hissənin qə - rargahı ilə birgə planlaşdırıcı və təlim sənədləri hazırlanıb. Təlimlərdə, ümumilikdə, 27 nəfər hərbi qulluqçu iştirak edib.





İlk olaraq, təlimin keçirilməsinin məqsədi iştirakçılara çatdırılıb, hərbi qulluqçularla təhlükəsizlik qaydaları üzrə məşğələ keçirilib, şəxsi heyətin hazırlığına, silahlara, döyüş sursatlarına, optik kəşfiyyat cihazlarına, rabitə vasitələrinə baxış keçirilib.

Təlimdə hərbi qulluqçularla atəş mövqeyinin tutulması, tərk edilməsi, atəş açana qədər heyətlərin işi, atışa xidmət tapşırıqların icrası, praktiki döyüş atışlarının keçirilməsi qaydaları, həmçinin, komandir heyəti ilə ərazinin vizual kəşfi, qiymətləndirilməsi, artilleriya atış və atəşinin idarə olunması qaydaları, artilleriya xətkeşlərinin və ərazinin xəritəsindən istifadə etməklə hədəfləri müəyyən edib, atışların keçirilməsi qaydası, atəşin bir nöqtədən idarə olunması, döyüş atışlı taktiki təlimin təşkili, keçirilməsi və qiymətləndirilməsi üzrə nəzəri məşğələlər keçirilib, praktiki fəaliyyəti məşq etdirilib.

Təlimin sonunda normativlər qəbul edilib, şəxsi heyətin bilik və bacarıqları qiymətləndirilib, müvafiq tapşırıq və tövsiyələr verilib.

**Ümumilikdə, təlimlər uğurla başa çatıb. Təlimlər zamanı təşkilati məsələlərin həlli, şəxsi heyətin qidalanması, yerləşdirilməsi, daxili xidmətin təşkili, praktiki atışlar zamanı isə atəş sahəsinin mühafizəsi, tibbi təminatı yüksək səviyyədə həyata keçirilib.**

**baş leytenant Nigar Ağayeva**

# BAXIŞ MÜSABİQƏSİNİN YEKUNLARI MƏLUM OLUB

**2019-cu ildə Daxili Qoşunlarda əsas tədbirlərin, döyüş təliminin planlaşdırılması və təşkilinə dair təqvim planına uyğun olaraq, Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanının müvafiq əmrinə əsasən, avqust ayının 1-dən sentyabr ayının 3-dək Daxili Qoşunların Ali Hərbi Məktəbində və hərbi hissələrdə təbliğat və təşviqat işinə, özfəaliyyət kollektivlərinə baxış müsabiqəsi keçirilib.**



Müsabiqə zamanı bütün hərbi hissələrdə təbliğat və təşviqat işinin hərbi qulluqçuların hərbi vətənpərvərlik ruhunda tərbiyə edilməsinə təsiri, özfəaliyyət kollektivlərinin fəaliyyətləri yoxlanılıb, hazırlanan proqramlara əsasən çıxışları izlənilib və qiymətləndirilib.



Hərbi hissələr arasında təbliğat və təşviqat işinin vəziyyətinə görə 12318, 25032, 16073 saylı hərbi hissələr və təlim mərkəzi müsbət cəhətdən fərqlənib.

Hərbi hissələrin təbliğat və təşviqat işi ilə yanaşı, özfəaliyyət kollektivlərinə də baxış müsabiqəsi keçirilib. Bu zaman əksər hərbi hissələrdə proqramın rəngarəngliyinə, müxtəlif bölmələr üzrə ifa məharətinə, səhnədə çıxışların nizamı və düzgün ardıcıllığına diqqət yetirilib. Yumoristik səhnəciklərin maraqlı məzmunu və həyatı ilə bağlılığı, hərbi vətənpərvərlik mövzusunun dolğun əks olunması baxımından, 17074, 99713 və 16075 saylı hərbi hissələrin özfəaliyyət kollektivləri daha çox seçilib. 25033, 67987 və 17072 saylı hərbi hissələrdə də istedadlı hərbi qulluqçulardan ibarət özfəaliyyət kollektivləri diqqətəlayiq proqramları ilə fərqləniblər.

**Qeyd edək ki, baxış müsabiqəsinin nəticələrinə görə fərqlənmiş hərbi hissələr, eyni zamanda, xidməti-vəzifə borclarının icrasına məsuliyyətlə yanaşan hərbi qulluqçular Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanının və hərbi hissə komandirlərinin müvafiq əmrləri ilə mükafatlandırılıblar.**

**baş leytenant Xədicə Hacızadə**

3_Layout 1 13.09.2019 12:39 Page 1



# "BAŞLICA AMALIMIZ TORPAQLARIMIZIN İŞĞALDAN AZAD OLUNMASINA HƏR AN HAZIR OLMAQDIR"

**DQBİ-nin Şəxsi heyət üzrə İdarəsinin məqsədli qurupunun tərkibində Bərdə rayonuna ezam olunmağımın başlıca məqsədi, 16077 saylı hərbi hissənin həyat və fəaliyyətini, bölmələrin nümunəvi xidmətini "Əsgər" qəzetində işıqlandırmaq idi.**

Əvvəlcə onu qeyd edim ki, Bərdə Azərbaycanın qədim tarixə malik, maddi-mədəniyyət abidələri ilə zəngin olan şəhərlərindən biridir. Burada məqsədli qurupun tərkibində artıq ikinci dəfə idi ki, olurdum. Şəhərin girəcəyində yerləşən Daxili Qoşunların hərbi hissəsinin və ətraf ərazilərinin abadlaşdırılması məqsədilə əkilmiş müxtəlif ağac və bəzək kolları artıq böyüyərək, yaşıl xiyaban kimi rayonun ümumi görünüşünə xüsusi yaraşıq verir.

Hərbi hissə komandiri polkovnik Zəfər Əliyevlə görüşüb, gəlişimin əsas məqsədinin hərbi hissənin döyüş və ictimai-siyasi hazırlığının mövcud vəziyyəti ilə yaxından tanış olmaq, eləcə də nizam-intizamı, nümunəvi xidməti ilə fərqlənən bölmə və hərbi qulluqçular barəsində məqalə hazırlamaq olduğunu bildirdim.





Polkovnik Z.Əliyev hərbi hissənin xidməti döyüş fəaliyyəti barədə geniş məlumat verərək, qarşıya qoyulmuş tapşırıqların yerinə yetirilməsinə hər an hazır olduqlarını qeyd etdi: "Hərbi hissəmizin tapşırıqları Daxili Qoşunların digər hərbi hissələrinin tapşırıqlarından bir qədər fərqlidir. Hərbi hissənin yerləşdiyi rayon döyüş bölgəsinə yaxın olduğundan, bölgədə ictimai asayişinin və sabitliyinin qorunub saxlanılması ilə yanaşı, əsas tapşırıq hissənin və bölmələrin döyüş hazırlığının daim yüksək səviyyədə saxlanılmasına ciddi fikir verməkdir. Həmçinin həvalə olunmuş və qəflətən qarşıya çıxan xidməti-döyüş tapşırıqlarının keyfiyyətlə yerinə yetirilməsi də əsas vəzifələrimizdəndir. Bu sadalanan tapşırıqların qısa vaxt ərzində və yüksək səviyyədə yerinə yetirilməsi isə, öz növbəsində şəxsi heyətin hərbi bilik səviyyəsinin və bacarıqlarının artırılmasından bir başa asılıdır".



Polkovnik Z.Əliyev bu məqsədlə hərbi hissədə müvafiq şəraitin yaradıldığını da bildirdi: "Şəxsi heyətin nəzəri biliklərinin daha da artırılması məqsədi ilə hərbi hissədə əyani vəsaitlərlə təchis edilmiş ixtisas hazırlığı sinifləri və müvafiq tədris proqramları hazırlanmışdır. Həmçinin, hərbi qulluqçuların səhra şəraitində praktiki fəaliyyətinə də ciddi fikir verilir ki, bu da yuxarıda qeyd etdiyim kimi döyüş hazırlığının yüksək səviyyədə saxlanılmasına təsir edən əsas amillərdən biridir. Bütün bunların əsasında isə başlıca amalımız olan torpaqlarımızın işğaldan azad olunmasına hər an hazır olmaq dayanır".



Hərbi hissə ərazisini gəzərkən, bölmələrin şəxsi heyətilə ixtisas hazırlığı üzrə keçirilən məşğələlər zamanı onlar üçün yaradılmış hərtərəfli şəraitlə də yaxından tanış oldum. Əyani vəsaitlərlə təhiz edilmiş geniş və işıqlı ixtisas hazırlığı siniflərində, eləcə də ərazidəki təlim şəhərciklərində şəxsi heyətlə günün nizam qaydalarına uyğun məşğələlər təşkil olunub keçirilirdi.

Ərazidə olarkən bölmələrin, o cümlədən xüsusi təyinatlı dəstənin zabitlərinin şəxsi heyətlə keçdikləri məşğələ və təlimləri yaxından izlədim.



### "VAŞAQ"

xüsusi təyinatlı dəstəsi hərbi hissənin nizam-intizamı və yüksək döyüş hazırlığı ilə sayılıb-seçilən bölmələrindəndir.

İlin istənilən fəslində, müxtəlif relyefə məxsus ərazilərdə adına uyğun çevik fəaliyyət göstərmək qabiliyyətinə malik olan dəstənin təlim proqramları hissənin digər bölmələrinin müvafiq tədris proqramlarından fərqlənir. Hərbi qulluqçudan kifayət qədər fiziki güc və möhkəm iradəyə malik olmağı tələb edən bu təlim proqramlarında nəzərdə tutulmuş məşğələlərə maraqla yanaşan komandolar, praktiki fəaliyyət zamanı yüksək peşəkarlıq göstərərək, qarşıya qoyulmuş tapşırıqların öhdəsindən layiqincə gəlirlər.



Dəstə komandirinin müavini-qərargah rəisi mayor Şixamir Qaflanov komandoların hazırlığını yüksək qiymətləndirərək, onların döyüş tapşırığını yerinə yetirməyə hər zaman hazır olduqlarını bildirdi: "Komandolarla keçirilən məşğələlər zamanı onların hərbi bilik və bacarıqlarını artırmalarına xüsusi fikir verilir. Əsas diqqətimizi atəş və fiziki hazırlıq məşğələlərinə, həmçinin səhra şəraitində taktiki hazırlıq üzrə praktiki fəaliyyətə yönəldirik. Hərbi topoqrafiya üzrə şəxsi heyətin biliklərinin artırılması da məşğələlər zamanı diqqət yetirilən vacib amillərdəndir. Hər bir komandonun müxtəlif miqyaslı xəritələrdən və GPRS qurğusundan fərdi qaydada sərbəst istifadə edə bilməsinə xüsusi fkir verilir".



"Yaradılmış bütün bu şəraitdən düzgün və səmərəli istifadə edərək keçirilən məşğələ və təlimlərin keyfiyyətinin artırılması, məhz döyüş hazırlığının yüksəldilməsinə xidmət edir. Yüksək döyüş hazırlığına, eləcə də xidmətin nümunəvi təşkil olunub aparılmasına nail olmanın əsasında isə şəxsi heyətin nizam-intizamı və düzgün istiqamətə köklənmiş mənəvi-psixoloji durumu dayanır" - deyə, fikirlərini bildirən dəstə komandirinin tərbiyə işləri üzrə müavini mayor Fizuli Şahrəliyev, bu baxımdan bəzi məqamlara aydınlıq gətirdi: "Ümumilikdə götürdükdə, dəstə kiçik bir hərbi kollektivdir. Dəstənin qarşısında qoyulmuş tapşırıqların müvəffəqiyyətlə yerinə yetirilməsi isə hərbi qulluqçuların birgə fəaliyyətindən asılıdır. Şəxsi heyətinin hərbi intizamının möhkəmləndirilməsi, hərbi kollektivdə dostluq və yoldaşlıq prinsiplərinin aşılanması, eləcə də mənəvi-psixoloji durumun düzgün məcraya yönləndirilməsi ümumi məqsədə çatmanın əsas meyarı olmaqla yanaşı, tərbiyə işinin qarşısında duran vacib vəzifələrdəndir."

Mayor F.Şahrəliyev məşğələlər zamanı yüksək çalışqanlıq göstərən, nizam-intizamı və nümunəvi xidməti ilə fərqlənən hərbi qulluqçuların adlarını qeyd etdi. Gizir Dəyanət Allahyarov, MAXE hərbi qulluqçulardan baş çavuş Hüseyn Həsənov, baş çavuş Kərim Kərimov, çavuş Tural Süleymanov və baş əsgər Elşən Həsənov dəstədə yüksək döyüş hazırlığı, həmçinin nümunəvi xidməti ilə fərqlənən komandolar kimi xarakterizə edilir.

### "Möhkəm hərbi intizam, nümunəvi xidmət və yüksək döyüş hazırlığı bizim başlıca prinsipimizdir"

Hərbi hissənin yüksək döyüş hazırlığı və nümunəvi xidmətilə fərqlənən bölmələrindən biri də polkovnik-leytenant Varis Nəcəfovun komandiri olduğu xüsusi vasitələrin tətbiqi dəstəsidir. Qeyd edək ki, Daxili Qoşunların Baş İdarəsinin İnspeksiyası tərəfindən keçirilən ümumyekun yoxlamasının nəticələrinə görə, dəstə hərbi hissənin digər bölmələrini qabaqlayaraq, yüksək nəticə göstərməyi bacarıb. Böyük əzmkarlıqla əldə olunmuş bu nailiyyətə görə dəstə hərbi hissə komandirinin müvafiq əmri ilə "Keçici Kubok"la mükafatlandırılıb.

Qazanılmış uğurlardan bəhs edən dəstə komandirinin tərbiyə işləri üzrə müavini mayor Ramin Ələsgərov, əldə etdikləri nailiyyətin başlıca səbəblərinə geniş aydınlıq gətirdi. O, dəstənin hər hansı bir çətinliyə baxmayaraq, qarşısına qoyulmuş bütün tapşırıqların icrasına hər zaman hazır olduğunu bildirdi: "Qarşıya qoyulan istənilən tapşırıqların müvəffəqiyyətlə yerinə yetirilməsinə daim hazır olmaq şəxsi heyətinin əsas vəzifələrindən biridir. Keçirilən təlim və məşğələlərin, həmçinin aparılan tərbiyə işinin əsas məqsədini də məhz bu amillər təşkil edir. Möhkəm hərbi intizam, nümunəvi xidmət və yüksək döyüş hazırlığı bizim başlıca prinsipimizdir".

Mayor R.Ələsgərov həmçinin, təlim proqramlarında nəzərdə tutulmuş tədbirlərlə yanaşı, Daxili Qoşunlar Komandanlığının müvafiq tapşırıqlarına uyğun olaraq, qrup və yarımqrup komandirlərinin hazırlıqlarına da xüsusi diqqət yetirdiklərini vurğuladı: "Bildiyiniz kimi, şəxsi heyətin əksər hissəsi müddətdən artıq xidmət edən hərbi qulluqçulardır. Dəstədə tərbiyə işinin əsas istiqaməti məhz MAXE hərbi qulluqçularda döyüş ruhunun yüksəldilməsi, nizam-intizamın möhkəmləndirilməsi, eləcə də sağlam kollektivin yaradılmasına nail olmaqdır. Elə bu səbəbdən dəstənin komandir heyətinin, o cümlədən qrup və yarımqrup komandirlərinin hazırlığına ciddi diqqət yetirilir".

Dəstə komandirinin müavini təlim və məşğələlərdə nümunəvi xidmətilə fərqlənən, öz işinə məsuliyyətlə yanaşan hərbi qulluqçuların adlarını da qeyd etməyi unutmadı. Qrup komandirlərindən baş leytenant Vaqif İsmayılov, yarımqrup komandirlərindən baş çavuş Xəyal İsmayılov, atıcılardan kiçik çavuş Sənan Eyyublu, kiçik çavuş Nadir Qafarov və əsgər Toğrul Əhmədov məhz belələrindəndir.

İnanırıq ki, dəstənin şəxsi heyəti bundan sonra da yüksək peşəkarlıq və əzmkarlıq göstərərək, əldə etdikləri bu uğuru qoruyub saxlamağa müvəffəq olacaqdır.





Başlıca vəzifəsi ümumilikdə Döyüş Bayrağının və hərbi şəhərciyin etibarlı mühafizəsi və müdafiəsini təşkil etmək olan

### KOMENDANT BÖLÜYÜNÜN

xidməti barədə də məlumat vermək istərdim. Etibarlı mühafizənin təşkil olunması qarovula cəlb olunan şəxsi heyətin ayıq-sayıqlığından və xidmətin nümunəvi aparılmasına bir başa təsir edən möhkəm hərbi intizamın olmasından asılıdır. Bu baxımdan komendant bölüyündə xidmət edən şəxsi heyət bilik səviyyəsi və dünya görüşü nəzərə alınmaqla, nizam-intizamlı, nümunəvi xidməti, verilən tapşırıqları dəqiq və cəld yerinə yetirmək qabiliyyətinə, eləcə də yüksək döyüş hazırlığına malik olan müddətli hərbi qulluqçular arasından seçilir. Seçilmiş hərbi qulluqçuların xidmətə hazırlanması və onların təlimatlandırılması da mühüm şərtdir.

Bölük komandiri baş leytenant Fuad İsmayılov bölükdə mövcud olan hərbi intizam və yüksək döyüş hazırlığını saxlamaqla bərabər, hissə komandanlığının etimadını hər zaman qorumaq əzmində olduqlarını bildirdi: "Bizə həvalə edilmiş obyektlərin etibarlı mühafizə və müdafiəsinə nail olmaq başlıca məqsədimizdir. Şəxsi heyətlə keçirilən bütün məşğələlərin və aparılan tərbiyə işinin əsasını da məhz bu prinsip təşkil edir. Əldə etdiyimiz müsbət nəticə isə işimizi düzgün istiqamətdə qurmağımızın göstəricisidir.




İndi başlıca hədəfimiz, qazandığımız etimadı bundan sonra da qoruyub saxlamaqdır".

Bölük komandirinin tərbiyə işləri üzrə müavini baş leytenant Qulu Quliyevlə birgə hissənin qarovul məntəqəsinə də baş çəkdim. Ayıq növbə ilə qarovul xidmətinin xüsusiyyətləri, nizam-intizamın qorunub saxlanması mövzusunda tərbiyəvi söhbətlər apardım. Söhbətlər zamanı əsgərlərin yüksək döyüş ruhuna malik olmaları və Daxili Qoşunlarda xidmətləri ilə fəxr etmələri açıqca sezilirdi. Funksional vəzifələrilə yanaşı, Daxili Qoşunların respublikamızın ərazi bütövlüyü uğrunda keçdiyi qəhrəmanlıqlarla zəngin döyüş yolu barədə suallara da dolğun və dürüst cavab verirdilər.

Taqım komandiri leytenant Ərəstun Əliyev, manqa komandirləri çavuş Rza Rzayev, kiçik çavuş İlkin İskəndərov, əsgərlərdən - baş əsgər Kamil Manafov, baş əsgər Kənan Talıbov, əsgər Fuad Rüstəmov və əsgər Orxan Rəsulzadə bölüyün nümunəvi xidmət edən hərbi qulluqçularındandır.

Baş leytenant Q.Quliyev, adları qeyd olunan hərbi qulluqçuların bölükdəki digər yoldaşlarına da nümunə ola biləcəklərini bildirdi.

**mayor Anar Əhmədov**

4_Layout 1 13.09.2019 11:31 Page 1



# Hərbi xidmətdə ruh yüksəkliyi vacib amildir




Hərbi xidmət zamanı qarşıya qoyulan tapşırıqların yerinə yetirilməsini təmin edən amillər arasında şəxsi heyətin ruh yüksəkliyinin xüsusi rolu var. Belə ki, hərbi qulluqçularla aparılan məqsədyönlü tərbiyə işinin nəticəsi olaraq formalaşan ruh yüksəkliyi hərbi kollektivin mənəvi cəhətdən dayanıqlığının, birliyinin, əzmkarlığının möhkəmləndirilməsinə zəmin yaradır.

Ruh yüksəkliyi hərbi qulluqçularda hərbi xidmətə həvəs və marağı gücləndirir. Qarşıya çıxan çətinliklərin dəf edilməsi və maneələrin keçilməsində özünə inam hissi aşılayır. Nəzərə almaq lazımdır ki, hərbi qulluqçulara mənəvi güc verən ruh yüksəkliyi döyüş sınaqlarında onlara psixoloji cəhətdən dayaq olur. Hərbi strateqlərdən biri deyib ki, mənəvi ruhu olmayan əsgər cəsur döyüşçü ola bilməz. Həqiqətən də döyüş meydanında hünərə aparan yol ruh yüksəkliyindən başlayır.

Ruh yüksəkliyi hərbi qulluqçunu qarşısında duran hədəflərə doğru inamla yönəldir, ona iradəsini toparlamağa qüvvət verir, uğur qazanmasına ilhamlandırır.

Psixoloqlar bildirirlər ki, ruh yüksəkliyi insanın daxili halı, hiss və duyğuları, mənəviyyatı ilə sıx bağlıdır. Bundan belə nəticə çıxır ki, insanda ruh yüksəkliyinə təkan verilməsi üçün onun daxili aləmi, hiss və duyğuları, mənəvi əqidəsi buna köklənməlidir. Təbii ki, tərbiyə işi prosesində şəxsi heyətin düzgün mənəvi əqidəsinin formalaşmasına nail olunması da ruh yüksəkliyinin aşılanması baxımından vacibdir.

Unutmaq olmaz ki, informasiya müharibələri və ideoloji təxribatların əsas məqsədlərindən biri də rəqib və ya düşmən tərəfdə ruh düşkünlüyü, mənəvi aşınma yaratmaqdır. Bununla da hədəf olan tərəfin döyüş qabiliyyətinə də ciddi zərər vurulur. Çünki ruh yüksəkliyi olmadan döyüş qabiliyyətini saxlamaq və inkişaf etdirmək çətindir.

Şərəfli hərbi ənənələr də hərbi qulluqçuların sırasında ruh yüksəkliyini formalaşdırır. Hərb tariximizin qəhrəmanlıq nümunələri şəxsi heyətin mübarizlik əzmini artırır. Qan yaddaşımız bizə daim xalqımızın üzləşdiyi sınaqları xatırladır və yenilməz döyüş ruhunun nə qədər böyük əhəmiyyət kəsb etdiyini təfəkkürümüzdə aydınlaşdırır.

Hərbi xidmətdə komandirlər tərbiyəçi kimi tabeliklərindəki şəxsi heyətin mənəvi-psixoloji hazırlığına xüsusi diqqət yetirməklə, onların inamını qazanmaqla, qarşıya qoyulan vəzifələrin məqsədini aydın izah etməklə, vahid amal naminə hərbi qulluqçuların səfərbər olunmasını həyata keçirməklə, şəxsi nümunə göstərməklə ruh yüksəkliyinin yaradılmasına öz töhfələrini verə bilərlər.

Vətənpərvərlik məfhumunu tərənnüm edən bədii ədəbiyyat, kinofilmlər, teatr tamaşaları, mahnılar və marşlar da ruh yüksəkliyi yaratmaq baxımından təsirli vasitələrdir. Bu vasitələrdən şəxsi heyətlə tərbiyə işi prosesində geniş istifadə olunmalıdır.

Hərbi kollektivlərdə ziyalılar, incəsənət xadimləri və veteranlarla mütəmadi keçirilən görüşlər də şəxsi heyətdə ruh yüksəkliyinin formalaşmasına xidmət etmiş olur.

Cəmiyyətdə hərbi forma daşıyan şəxslərə hörmətlə yanaşılması, onlara ictimai rəğbətin mövcudluğu, eləcə də ailələrinin hərbi qulluqçulara dəstək verməsi də ruh yüksəkliyinə yol açan məqamlardır.

Hərbi qulluqçuların mükafatlandırılması, vəzifədə və rütbədə irəli çəkilməsi, onlara etimad göstərilməsi addımları da ruh yüksəkliyinin təməlini qoyur.

Vətəndaşı olduğumuz dövlətimizin ildən-ilə uğurlu inkişafı, hərbi və iqtisadi qüdrətinin artması, müxtəlif sahələrdə ilklərə imza atması və böyük nailiyyətlər qazanması da hər birimizdə haqlı iftixar hissi doğurur, habelə ruh yüksəkliyinə ciddi əsas verir.

**Yalçın Abbasov**

*NÜMUNƏVİ XİDMƏT*

# TƏCRÜBƏLİ TEXNİK, İNTİZAMLI HƏRBÇİ



16077 saylı hərbi hissənin nümunəvi hərbi qulluqçusu baş çavuş Şəmil Süleymanov 1990-cı ildə Tərtər rayonunun Qaynaq kəndində dünyaya göz açıb. 2007-ci ildə Naftalan şəhər 2 saylı tam orta məktəbi bitirib. 2008-2009-cu illərdə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin sıralarında müddətli həqiqi hərbi xidmət keçib. 2009-cu ildə tərxis olduqdan sonra Bərdə rayonunda motor ustası kimi işləməyə başlayıb. Bu sahədə təcrübəsini daha da zənginləşdirən Şəmil 2012-ci ildə həyatını Vətəninə həsr etmiş atası - müharibə veteranı Elgiz Süleymanovdan ilhamlanaraq, bundan sonra həyatını hərbi qulluqçu kimi davam etməyə, bu sahədə bilik və bacarıqlarını artırmağa qərar verir. Hal-hazırda 16077 saylı hərbi hissədə motoatıcı bölüyündə texnik vəzifəsində xidmətini davam etdirir.

Hər zaman yüksək nizam-intizam nümayiş etdirən baş çavuş Ş.Süleymanov təlim-tərbiyəsi ilə də digər hərbi qulluqçulardan seçilir. Üzərinə düşən vəzifələri məsuliyyətlə, dəqiq yerinə yetirir, işinin öhdəsindən layiqincə gəlir. Bu keyfiyyətlərinə görə dəfələrlə mükafatlandırılıb.

O, hər səhər texnikanın sazlığını yoxlayır, onlara qulluq göstərir, nasaz hissələr aşkar edərsə, dərhal təmir edir. Yanacağın və sürtkü materiallarının, ehtiyat hissələrinin və başqa əmlakın qənaətlə sərf edilməsinə diqqət yetirmək, parkdan çıxan maşınların vəziyyətini yoxlamaq, ancaq texniki cəhətdən saz maşınları istismara buraxmaq, maşınların qəza, sınma və zədələnmə hallarının qarşısını almaq üçün tədbirlər görmək, parkda və maşınlarda yanğına qarşı tədbirlər həyata keçirtmək, döyüş texnikası və maşınların texniki cəhətdən düzgün istifadə olunmasını, saz saxlanılması üçün tədbirlər görmək baş çavuş Ş.Süleymanovun funksional vəzifələridir.

Vəzifə borclarının icrasına vicdanla yanaşan, daim öz bilik və bacarıqlarını təkmilləşdirən baş çavuş Ş.Süleymanov qeyd etdi ki, istənilən sahədə uğurlu nəticənin əldə olunması üçün rəhbər sənədlərin tələblərini bilməklə yanaşı, qarşıya qoyulmuş tapşırıqların icrasına məsuliyyətlə yanaşılmalıdır: "Bu gün Daxili Qoşunların hərbi qulluqçusu olduğum üçün həqiqətən qürur hissi keçirirəm və bundan sonra da komandanlıq tərəfindən verilən tapşırıqların icrasına hər zaman hazıram".

**gizir Ariz Aslanov**

# Döyüş ruhlu şair ömrü yaşadı...

Daxili Qoşunların Veteranlar Şurasının üzvü, Sabunçu Rayon Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədri, Azərbaycan Yazıçılar və Jurnalistlər birliklərinin üzvü, şair, pedaqoq, ehtiyatda olan mayor Elxan Mirzəyev (Elxan Xəzər) ağır xəstəlikdən sonra vəfat edib. Bu itki Daxili Qoşunların şəxsi heyəti və veteranlarını, Elxan müəllimin əsərlərinin çoxsaylı oxucularını, onun bilik verdiyi və tərbiyə etdiyi gəncləri, ümumilikdə, bütün onu tanıyanları dərindən sarsıdıb. O, ziyalı zirvəsinə ucalmış, parlaq istedada malik vətənpərvər insan idi.



E.Mirzəyev şərəfli və ləyaqətli bir ömür yaşayıb. Onun həyat yolu Vətənə fədakar xidmət nümunəsidir. 1955-ci il avqustun 28-də Naxçıvan Muxtar Respublikası Ordubad rayonunun Vənənd kəndində dünyaya göz açan E.Mirzəyev orta məktəbdə oxuduğu illərdən ədəbiyyata, poeziyaya xüsusi maraq göstərib. 1972-ci ildə "Yeni Ordubad" qəzetində ilk şeirləri çap olunub. 1981-ci ildə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) filologiya fakültəsini bitirib.

E.Mirzəyev 20 ildən artıq bir müddətdə daxili işlər orqanları və Daxili Qoşunların sıralarında xidmət yolu keçib. Bir sıra məsul vəzifələrə təyin olunub. Hərbçi karyerasında mayor hərbi rütbəsinədək yüksəlib. Daxili Qoşunların hərbi hissələri və Baş İdarəsində şəxsi heyətin təlim-tərbiyəsi işinin təşkilində təqdirəlayiq əmək sərf edib.

Respublikamızın ərazi bütövlüyü uğrunda döyüşlərdə zabit olaraq iştirak etmiş E.Mirzəyev düşmənə qarşı qətiyyətlə vuruşub. Döyüşən hərbi hissə komandirinin müavini vəzifəsində öz fədakarlığı ilə döyüşçülərə nümunə olub, onları mübarizliyə ruhlandırıb. Ağdərə cəbhəsində qanlı döyüşlər zamanı yaralanan və kontuziya olan, həmçinin, bir müddət sonra ağır bədən xəsarəti alan E.Mirzəyevin yaddaşında müharibə xatirələri silinməz iz buraxıb.

Daxili Qoşunların mətbuat orqanı olan "Əsgər" qəzetinin fəaliyyətində E.Mirzəyevin də xidmətləri var. Belə ki, o, bir müddət "Əsgər" qəzetinin redaktoru vəzifəsində xidmət edərək, redaksiyanın yaradıcı potensialının inkişafına öz layiqli töhfəsini verib. Onu da xüsusi vurğulamaq lazımdır ki, ölkəmizdə hərbi jurnalistika sahəsinin formalaşmasında E.Mirzəyev də öz zəhmətini əsirgəməyib.

Ədəbi yaradıcılığı Elxan müəllimin ömür yolunda xüsusi yer tutur. O, Elxan Xəzər imzası ilə yüksək bədii dəyərə malik nəzm və nəsr əsərlərini ərsəyə gətirib. Onlarla kitabın müəllifi olan ədibin çoxşaxəli yaradıcılığının baş mövzusu vətənpərvərlikdir. Qələmə aldığı "Əsrin cinayəti", "Şəhid şəhər", "Örnək", "Dəyanət", "Mübariz", "Bizim Türkiyə", "Əzəmət", "Tək qalmış ana" və digər maraqlı poemaları ilə o, müasir ədəbiyyatımızda öz möhürünü vurub.

Elxan Xəzər "Alınmaz qala", "Məsafə", "Günah", "Vicdanın üsyanı", "Tanrı cəzası", "Dəyişən adam", "Cavab", "Tələ", "Qaniçənlər", "Faşizmi kölgədə qoyanlar" və digər pyes, povest, hekayələrin müəllifidir.

Azərbaycan ədəbiyyatının tanınmış simaları: Bəxtiyar Vahabzadə, Xəlil Rza Ulutürk, Fikrət Qoca, Nəriman Həzənzadə, Qılman İlkin Elxan Xəzərin yaradıcılığına yüksək qiymət vermişlər. Təsadüfi deyil ki, Elxan Xəzər "Qızıl qələm" mükafatına layiq görülüb.

Şairin şeir və poemalarında Daxili Qoşunların hərbi qulluqçularının Vətənə sədaqəti və qəhrəmanlığı dolğun tərənnüm olunub. Daxili Qoşunların döyüş yolunun müxtəlif məqamları bədii çalarlarla məhz Elxan Xəzərin yaradıcılığında öz əksini tapıb.

Elxan müəllim respublika veteran hərəkatının fəallarından biri idi. Sabunçu Rayon Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının rəhbəri və Daxili Qoşunların Veteranlar Şurasının üzvü kimi veteranların ictimai mənafelərinin qorunması, onların həmrəyliyinin möhkəmləndirilməsi, cəmiyyətdə hərbi-vətənpərvərlik tərbiyəsi işində rolunun gücləndirilməsi yönündə var gücü ilə çalışırdı. Onun məktəblilər, tələbələr, əsgərlər qarşısında vətənpərvərlik mövzusunda çoxsaylı çıxışları hər bir auditoriyaya ruh yüksəkliyi və əzmkarlıq aşılayırdı.

Təcrübəli pedaqoq kimi də gənclərin milli-mənəvi dəyərlərimiz əsasında tərbiyə olunması, Vətənin müdafiəsinə hazırlanması və savadlı nəslin formalaşması naminə yorulmaz fəaliyyət göstərirdi.

E.Mirzəyev Azərbaycan Respublikası Prezidentinin 10.03.2012-ci il tarixli sərəncamı ilə "Hərbi xidmətlərə görə" medalı ilə təltif olunub.

Mərhum veteran və şairin həyat yolu və yaradıcılığı barədə bugünədək bir sıra kitablar işıq üzü görüb, dövri mətbuatda məqalələr dərc edilib.

E.Mirzəyevin işıqlı xatirəsi həmişə qəlbimizdə yaşayacaqdır.

**Allah rəhmət eləsin!**

**Yalçın Abbasov**

# HƏRBİ XƏBƏRLƏR

*-YENİLİKLƏR-*

## Malayziya Rusiyadan MiQ-35 qırıcısı almaq niyyətindədir

Malayziya Rusiya ilə köhnəlmiş hərbi təyyarə parkını yeniləmək üçün danışıqlar aparır. Ordu.az xarici KİV-ə istinadən xəbər verir ki, bu barədə Malayziya Baş Naziri Mahatahir Mohamad bildirib.



Onun sözlərinə görə, Kuala-Lumpur köhnə model Rusiya təyyarələrini verərək, əvəzində yeni MiQ-35 təyyarələri almaq niyyətindədir.

Baş Nazir bu barədə Rusiya dövləti ilə deyil, hələlik şirkətlərlə danışıqların aparıldığını qeyd edib. O, ölkəsinin köhnə MiQ təyyarələrini qaytararaq, əvəzində yeni nəsil MiQ-35-lərin alması məsələsinin araşdırıldığını açıqlayıb.

Qeyd edək ki, Malayziyanın müdafiə xərcləri ölkə büdcəsinin cəmi 2%-ni təşkil edir.

## Dehli Moskvadan 14,5 milyard dollarlıq silah və hərbi texnika alacaq

Hindistan Rusiyadan 14,5 milyard dollar dəyərində silah və hərbi texnika alacaq. Ordu.az Rusiya KİV-ə istinadən xəbər verir ki, bu barədə Rusiyanın Hərbi-Texniki Əməkdaşlıq üzrə Federal Xidmətinin direktoru Dmitri Şuqayev bildirib.



Onun sözlərinə görə, iki ölkə arasında silahların və hərbi texnikaların tədarükünü nəzərdə tutan müqavilə də imzalanıb.

"Bu, çox əhəmiyyətli rəqəmdir və həqiqətən irəliləyişdir", - deyə Şuqayev vurğulayıb.

# Allah rəhmət eləsin

Daxili Qoşunların Komandanlığı polkovnik Nəsir Hüseynova **qardaşının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Daxili Qoşunların Veteranlar Şurası **döyüşçü-şair, ehtiyatda olan mayor Elxan Xəzərin** vəfatından kədərləndiyini bildirir və ailəsinə dərin hüznlə başsağlığı verir.

*TƏSİSÇİ:*
**Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.**
**Redaktor: Anar Əhmədov**

**REDAKSİYANIN ÜNVANI:**
**AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.**
**Əlaqə telefonları: 560-22-63**

**Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.**

**Şəhadətnamə 3565**
**Sayı 3000**